Azərbaycan.- 2024.- 22 fevral, № 40.



# Yüksələn qlobal nüfuz

## Münxen Təhlükəsizlik Konfransında Azərbaycan Prezidentinə göstərilən etimad bunu bir daha təsdiqlədi

Prezident seçkilərindən sonra yeni inkişaf dövrünə başlayan Azərbaycanın böyük nüfuza malik olduğu Münxen Təhlükəsizlik Konfransı çərçivəsində özünü bir daha göstərdi. Hətta uzun müddətdir ölkəmizə qarşı qarayaxma kampaniyaları aparanlar, əleyhimizə çıxanlar da Prezident İlham Əliyevlə görüşmək üçün müraciət edib apardıqları siyasətdən geri çəkildiklərinin mesajını verdilər.

Milli Məclisin deputatı Kamilə Əliyeva da "Azərbaycan" qəzetinə açıqlamasında bu məsələyə toxunaraq bildirib ki, Münxen Təhlükəsizlik Konfransında dövlət və hökumət başçılarının, nüfuzlu beynəlxalq təşkilatların, nəhəng şirkətlərin rəhbərlərinin Prezident İlham Əliyevlə görüşə təşəbbüs göstərmələri dövlətimizin başçısına olan böyük hörmət və ehtiramın nümunəsidir.



Deputat qeyd edib ki, dövlət başçımıza göstərilən bu münasibətin səbəbi Azərbaycanın dünyada müstəqil siyasət həyata keçirməsi, bütün dövlətlərlə qarşılıqlı hörmət və bərabərtərəfli münasibətlər qurulmasına tərəfdar olmasıdır: "Konfransda Prezident cənab İlham Əliyevin ATƏT-in Baş katibi ilə görüşdə bu təşkilatın strukturunda dəyişikliklərin aparılmasının vacib olması barədə fikirləri bir çox dövlətlərin liderləri tərəfindən də müsbət qarşılandı. Hazırkı reallıqda ATƏT-in tərkibində fəaliyyət göstərən Minsk qrupu, Yüksək Səviyyəli Platforma Komitəsi və ATƏT sədrinin şəxsi nümayəndəsi fəaliyyətsiz strukturlardır. Dövlət başçımız bu strukturlara ayrılan vəsaitin daha məqsədyönlü istiqamətə yönəldilməsinin vacibliyini vurğuladı".

Münxen Təhlükəsizlik Konfransında müzakirə olunan ən vacib məsələlərdən birinin COP29-a həsr olunduğunu deyən K.Əliyeva vurğulayıb ki, konfransda iştirak edən ölkələrin və beynəlxalq təşkilatların rəhbərləri COP29-un Azərbaycanda keçirilməsinə dəstək olduqlarını bir daha nümayiş etdiriblər. Bu, dövlət başçımızın "yaşıl enerji" sahəsində həyata keçirdiyi böyük layihələrə və dünyada bu sahənin inkişafına verilən yüksək qiymətdir. Digər tərəfdən, Azərbaycan dəfələrlə bu cür böyük və nüfuzlu tədbirlərə yüksək səviyyədə evsahibliyi edib və dünya ictimaiyyəti də bunu bilir. Azərbaycan Qoşulmama Hərəkatının Zirvə görüşlərini, digər qlobal səviyyəli siyasi tədbirləri, genişmiqyaslı beynəlxalq idman yarışlarını yüksək səviyyədə keçirib və böyük təcrübəyə malikdir.

Deputat konfrans çərçivəsində Prezident İlham Əliyevin Ermənistanın baş naziri Paşinyanla da görüş keçirdiyini xatırladaraq bildirib ki, bu dəfə də görüşün hansı formatda reallaşmasını diktə edən tərəf dövlət başçımız oldu. "Görüşdə sülh müqaviləsinin imzalanması və sərhədlərin delimitasiya məsələləri müzakirə edildi və bu istiqamətdə hər iki ölkənin nümayəndələrinin mütəmadi görüşmələri haqqında razılığa gəlindi. Prezident cənab İlham Əliyev dəfələrlə regionda sülhün bərqərar edilməsinə tərəfdar olduğunu və ikitərəfli görüşlərin keçirilməsinin sülh prosesinə müsbət təsir göstərə biləcəyini vurğulamışdı. Ermənistan isə sözdə sülhə tərəfdar olduğunu vurğulasa da, əməldə əks mövqe nümayiş etdirir", - deyə deputat əlavə edib.

Deputat sonda bildirib ki, Münxen Təhlükəsizlik Konfransında dünya liderlərinin və beynəlxalq təşkilatların rəhbərlərinin Azərbaycanla bağlı söylədikləri fikirlər ölkəmizin dünya üçün vacib olduğunu bir daha sübut edir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***